# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**2022-ci il üçün ƏSAS qrant müsabiqəsinin**
**(AEF-MCG-2022-1(42)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 7-ci mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Pedaqoji kadr hazırlığında Avropa təhsil sisteminin araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycanda pedaqoji yönümlü universitet və kolleclərin filoloji fakültələrində tətbiqi**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Hüseynova Mahirə Nağı qızı**

Layihənin nömrəsi: **AEF-MCG-2022-1(42)-12/12/5-M-12**

Müqavilənin imzalanma tarixi: **10 aprel 2023-cü il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2023-cü il - 01 may 2025-ci il**

*Layihənin **VII mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova və Müasir Azərbaycan dili kafedrasının müdiri, dosent Könül Səmədova, Özbəkistanın Səmərqənd şəhərindən Azərbaycana işgüzar səfər edən Səmərqənd Dövlət Universitetinin nümayəndələrini qəbul ediblər. Görüşün əsas məqsədi təhsil sahəsində əməkdaşlığı daha da dərinləşdirmək və iki universitet arasında mövcud əlaqələri gücləndirmək olub.<br>Görüş zamanı professor Mahirə Hüseynova və dosent Könül Səmədova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) uzun illər boyu əldə etdiyi təhsil təcrübəsini və Qafqazın ən qədim pedaqoji ali təhsil müəssisəsi olaraq bu sahədəki önəmini qeyd ediblər. Onlar həmçinin, ADPU-nun geniş beynəlxalq əlaqələri, təhsil metodları və proqramları barədə məlumat verərək, Səmərqənd Dövlət Universitetinin nümayəndələrinə bu təcrübələri və yenilikləri tətbiq etməkdə maraqlı olduqlarını ifadə ediblər.<br>Səmərqənd Dövlət Universitetinin nümayəndələri də öz növbələrində universitetlərinin təhsil sahəsindəki |

| | |
|---|---|
| | nailiyyətləri və inkişaf perspektivləri haqqında məlumat veriblər. Səmərqəndin təhsil sistemi və tədqiqat sahəsindəki uğurları, xüsusilə də Azərbaycan dili və mədəniyyəti üzrə araşdırmaların artırılması məsələsi müzakirə edilib.<br>Görüşün sonunda, tərəflər arasında müxtəlif sahələrdə, xüsusilə müştərək elmi tədqiqatlar, müəllim və tələbə mübadiləsi, həmçinin təhsil proqramlarının qarşılıqlı inkişafı üzrə bir sıra əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib. Bu əməkdaşlıq, həm Azərbaycan, həm də Özbəkistan təhsil sistemlərinin inkişafına müsbət təsir göstərməklə yanaşı, iki ölkə arasındakı mədəni və akademik əlaqələrin daha da güclənməsinə imkan yaradacaq.<br>Bundan əlavə, ADPU-nun gələcəkdə Səmərqənd Dövlət Universiteti ilə birgə konfranslar və seminarlar təşkil edəcəyinə dair razılıq əldə edilib. Bu cür tədbirlər, hər iki universitetin təhsil və elmi sahələrdə yeni ideyaların mübadiləsini təmin edəcək.<br>Görüşün son günündə prof. Mahirə Hüseynova Səmərqənd Dövlət Universitetinin gəlmiş tələbələrlə görüşərək onların suallarını cavablandırıb. Görüş zamanı professor öz yaradıcılığından seçilmiş şeirlər səsləndirib. Tələbələr xüsusi maraqla prof. Mahirə Hüseynovanın şeirlərinə bəstələnmiş mahnıları dinləyiblər. Görüş səmimi və ilhamverici ab-hava ilə yekunlaşıb. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün , faizlə qiymətləndirməli) |
| | *98 %* |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | 1. Təhsil müəssisələrinin fəaliyyətinin əmək bazarının mövcud tələblərinə uyğun qurulması zəruridir.<br>2. Universitetlər arasında qarşılıqlı əməkdaşlıq mexanizmlərinin yenilənməsi və inkişaf etdirilməsi tələb olunur.<br>3. İş dünyasının nümayəndələri ilə ortaq proqramlar hazırlamaq və təcrübə mübadilələrini artırmaq məqsədəuyğundur.<br>4. Universitetlərdə praktik biliklərin artırılmasına yönəlmiş təlim və təcrübə imkanlarının genişləndirilməsi vacibdir. |
| 4 | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | APF (Adaptive Project Framework)<br>XP (Ekstremal Proqramlaşdırma)<br>Eksperimental sorğu<br>Təqdimat |
| 5 | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | 1. Mahirə Hüseynova. Universitet və kolleclərin filoloji fakültələrində Azərbaycan dili təlimində tekstoloji metodun tətbiqi. |

| | |
|---|---|
| | Filologiya və pedaqogika: elmi araşdırmalar, Bakı, 2024, cild1, №5, s.15-20<br>https://filologiya.az/images/Flologiya_gazet/Filologiya%20v%C9%99%20Pedaqogika%20Elmi%20Ara%C5%9Fd%C4%B1rmalar%202024,%20Cild%201,%20%E2%84%965.pdf<br>2. Həsənova Könül. Ali məktəblərin filoloji fakültələrində Azərbaycan dili dərslərində semantik-üslubi metodun tətbiqı əhəmiyyəti.<br>Filologiya və pedaqogika: elmi araşdırmalar, Bakı, 2024, cild1, №5 s.21-27<br>https://filologiya.az/images/Flologiya_gazet/Filologiya%20v%C9%99%20Pedaqogika%20Elmi%20Ara%C5%9Fd%C4%B1rmalar%202024,%20Cild%201,%20%E2%84%965.pdf<br>3. Səmədova Könül. Azərbaycan ali təhsil sistemində beynəlxalq təcrübəyə əsaslanan təlim texnologiyaları .<br>Filologiya və pedaqogika: elmi araşdırmalar, Bakı, 2024, cild1, №5 s.28-33<br>https://filologiya.az/images/Flologiya_gazet/Filologiya%20v%C9%99%20Pedaqogika%20Elmi%20Ara%C5%9Fd%C4%B1rmalar%202024,%20Cild%201,%20%E2%84%965.pdf<br>4. Səmədova Könül. Факторы, влияющие на тенденции педагогического образования в мире.<br>"ГЛОБАЛЬНЫЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ ФИЛОЛОГИИ В ОБРАЗОВАНИИ".<br>Материалы международной научно-практической конференции 2 декабря 2024 г. s.55-60<br>https://docs.google.com/document/d/14NWyKjWpKZd--227W7Q4ylzuBYU2s6HIbBNFZV8sj24/edit?tab=t.0<br>5. Hacıyeva Ülviyyə. Language learning strategy training models.<br>"Yaşıl iqtisadiyyat davamlı inkişafın modeli kimi" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları Azərbaycan, Bakı, 24 aprel, 2024-cü il. s.248-252.<br>https://drive.google.com/file/d/1DSt-2rrF8CgoBb210aR56SUq9FFjxPBV/view?usp=drive_link<br>6. Hacıyeva Ülviyyə. Методы обучения стратегии языкового преподования.<br>Материалы международной научно-практической конференции 2 декабря 2024 г s. 67-73.<br>https://docs.google.com/document/d/14NWyKjWpKZd--227W7Q4ylzuBYU2s6HIbBNFZV8sj24/edit?tab=t.0 |
| 6 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | 1. Əmək bazarının tələblərinə uyğun təhsil proqramlarının təkmilləşdirilməsi və uyğunlaşdırılması üçün təkliflər hazırlanması.<br>2. Genişmiqyaslı və detallı strateji planın hazırlanması və həyata keçirilməsi.<br>3. Müasir təhsil texnologiyalarının pedaqoji hazırlıq prosesinə inteqrasiyası və tətbiqi.<br>4. Təhsil sahəsində beynəlxalq təcrübələrin öyrənilməsi və adaptasiya olunması.<br>5. Müəllimlərin peşəkar inkişafının artırılması və yeni metodik yanaşmaların tətbiqi.<br>6. Pedaqoji kadrların praktik bacarıqlarını artırmaq üçün real iş şəraitində təcrübə proqramlarının hazırlanması və tətbiqi.<br>7. Təhsil müəssisələri ilə sənaye və iş dünyası arasında əməkdaşlığın inkişaf etdirilməsi.<br>Bu məqsədlər, pedaqoji kadrların hazırlığında keyfiyyətin artırılmasına və təhsil sisteminin əmək bazarının ehtiyaclarına daha yaxşı cavab verməsinə xidmət edəcək.<br>. |
| 7 | Layihə üzrə ezamiyyətlər |

| | |
|---|---|
| | *(burada doldurmalı)* |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)* |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | 04-06 fevral 2025-ci il tarixlərində layihə iştirakçılarından dosent Ülviyyə Hacıyeva və baş müəllim Mirvari Qasımovanın təşkilatçılığı ilə "İspan təhsil sistemində pedaqoji kadr hazırlığı" adlı təlim keçiriləcək.<br>Bu təlimin əsas məqsədi İspaniya təhsil sistemində pedaqoji kadr hazırlığının əsas prinsiplərini araşdırmaq və bu təcrübəni digər təhsil sistemləri ilə müqayisə edərək faydalı metodları müəyyən etməkdir.<br>Təlim çərçivəsində aşağıdakı istiqamətlərə diqqət yetiriləcək:<br>1. İspaniya təhsil sistemində pedaqoji kadrların hazırlanması modelinin təhlili;<br>2. Müasir tədris metodları və innovativ pedaqoji yanaşmalar;<br>3. İspaniya təhsil standartları və müəllimlərin peşəkar inkişafı;<br>4. Təhsil sahəsində beynəlxalq əməkdaşlığın rolu və qarşılıqlı təcrübə mübadiləsi;<br>5. İspan təhsil modelinin Azərbaycan təhsil sisteminə inteqrasiya imkanları.<br>Bu təlim, pedaqoji sahədə çalışan mütəxəssislərə İspaniya təhsil sisteminin qabaqcıl təcrübələrini öyrənmək və tətbiq etmək üçün dəyərli biliklər qazandıracaq. |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | Layihə üzrə həyata keçirilən tədbirlər üçün video-proyektor, mikrafonlar, sorğu vərəqlərinin hazırlanması üçün vatman kağızlar, vinil və digər yazı ləvazimatları (rəngli flomasterlər, kağız və s.) |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | Səmərqənd Dövlət Universitetinin tələbə və müəllim heyəti ilə görüş. |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)* |
| **15** | Sərgilərdə iştirak |
| | ADPU-nun nümayəndələri, həmçinin Səmərqənd Dövlət Universitetinin əməkdaşları ilə birlikdə sərgilərdə iştirak edərək, hər iki universitetin təhsil və elmi nailiyyətlərini beynəlxalq səviyyədə tanıtmaq məqsədini güdürlər. Belə sərgilər, xüsusilə təhsil sahəsində yeni inkişafları nümayiş etdirmək, həmçinin tələbə və müəllim mübadiləsi, müxtəlif sahələrdə təcrübə və bilik mübadiləsi aparmaq üçün əla fürsət yaradır. |

Sərgilər zamanı müxtəlif sahələrdən olan tədqiqatlar, yeni tədris metodları, təhsil texnologiyalarının tətbiqi və mədəniyyətin yayılması mövzularında stendlər təşkil edildi. Məsələn, ADPU və Səmərqənd Dövlət Universiteti birgə sərgidə iştirak edərək, Azərbaycan və Özbəkistanın təhsil sistemləri, dillərarası əlaqələr və mədəni irslə bağlı yeni tədqiqatları və layihələri təqdim edildi. Bu tədbirlərdə həmçinin, beynəlxalq əməkdaşlıq sahəsində əldə olunan nəticələr və gələcəkdə nəzərdə tutulan ortaq layihələr müzakirə edildi.
Belə sərgilərdə iştirak, həmçinin universitetlərin elmi işlərinin və tədris proqramlarının beynəlxalq qiymətləndirilməsi baxımından faydalıdır. Həm ADPU, həm də Səmərqənd Dövlət Universiteti, müxtəlif elmi tədqiqatların nəticələrini nümayiş etdirərək, dünya səviyyəsində tanınmaq və beynəlxalq akademik aləmdə mövqelərini gücləndirmək məqsədini daşıyır.
Bu cür sərgilərdə iştirak etmək həm də tələbələrin və müəllim heyətinin başqa universitetlərlə əlaqələr qurmasına, həmçinin digər akademik mühitlərdəki təcrübələri öyrənmələrinə imkan verir. Həmçinin, sərgilər zamanı qurulan əlaqələr və təcrübə mübadiləsi gələcəkdə yeni tədqiqat layihələrinin həyata keçirilməsi, elmi jurnallarda məqalələrin çapı və beynəlxalq elmi konfranslarda iştirak üçün mühüm zəmin yaradır.

**16** Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi

Təcrübə mübadiləsi çərçivəsində, müəllimlər və tələbələr bir-birinin tədris və tədqiqat sahələrindəki inkişafları, dərs proqramlarını və elmi yanaşmaları daha yaxından tanıya bilərlər.
Bu, həmçinin akademik mühitdəki yenilikləri, yeni araşdırma istiqamətlərini və təhsil texnologiyalarını öyrənmək imkanı yaradır. Misal üçün, ADPU-nun müəllimləri və tələbələri Səmərqənd Dövlət Universitetindəki təcrübələrdən faydalana, oradakı təhsil və mədəniyyət sistemini daha dərindən öyrənə bilərlər. Eyni şəkildə, Səmərqənd Dövlət Universitetinin nümayəndələri də ADPU-nun təhsil təcrübəsindən bəhrələnə bilər.

**17** Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s.

1. Səmədova Könül. Ali məktəbdə təhsilalan və təhsilverən münasibətlərin qurulmasında Avropa təcrübəsi.
Azərbaycan müəllimi, 14 dekabr, 2024. s.10
https://api.muallim.edu.az/uploads/muallimeduazqazetpdf/16%20December%202024/734cf085-4ab0-4ace-9420-ffb2b978db14_N-46%2014%20DEKABR%202024%20(1).pdf

2. Səmədova Könül. Dünyada pedaqoji təhsil tendensiyasına təsir göstərən amillər. ictimaifikir.az 13.11.2024.
https://ictimaifikir.az/index.php?newsid=25515

**Layihə rəhbərinin imzası ___________________ Hüseynova Mahirə Nağı qızı**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.